 ISSN 2663 - 4619 / Print

DOI: 10.36719/AEM/2007-2019/47/81-85
**Allahşükür İlqar oğlu Zülfiqarlı**
Bakı, Azərbaycan

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

***Açar sözlər:*** *beynəlxalq münasibətlər, dünya siyasətinin müasir subyekti, müstəqillik, Azərbaycan Respublikası*
***Key words:*** *international relations, subject of modern world politics, independence, Azerbaijan Republic*
***Ключевые слова:*** *международные отношения, субъект современной мировой политики, независимость, Азербайджанская Республика*

XX əsrin sonlarında dünya sosializm sisteminin böhranı və süqutu beynəlxalq münasibətlərin mahiyyətinin transformasiyasına səbəb oldu. Yaranan müstəqil dövlətlər dünyanın siyasi mənzərəsinin yenidən qurulmasına, beynəlxalq münasibətlərin məzmun və mahiyyətində dəyişikliklərə gətirdi. Bu dəyişikliklər özünü beynəlxalq hüququn yeni prinsiplərinin formalaşması və tətbiqi mexanizmlərinin yaranması, dünya siyasətinin transmilliləşməsi, ABŞ-ın yeni dünya nizamındakı rolunun genişlənməsi ilə təzahür etdirməyə başladı. Təkqütblü dünyada mərkəz və periferiya dövlətləri fərqləndirilməyə başlandı.

Avro-asiya regionunda Sovet imperiyasının süqutu yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının meydana gəlməsi və müasir dünya siyasətinin subyektinə çevrilməsilə nəticələndi.

1991-ci ilin sonu – 1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. Ikitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə təkan verdi [11, s.171-172].

Bu dövrdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlərinin qurulmasında ümummilli lider Heydər Əliyevin rolu danılmazdır.

Qeyd edilməlidir ki, ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasının qlobal inkişaf tendensiyasına uyğun metodoloji əsaslarını müəyyənləşdirdi. Müstəqillik dövründə Azərbaycan balanslaşdırılmış xarici siyasəti realistik xüsusiyyət qazandı. Bu xarici siyasətin əsas prioritetləri dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, erməni işğalının aradan qaldırılması, Avropa birliyinə, həmçinin qlobal siyasi məkana inteqrasiya oldu [14, s.3-4].

Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin həyat keçirilməsində bir sıra obyektiv və ölkənin daxili vəziyyətindən irəli gələn subyektiv çətinliklərə baxmayaraq, suverenliyin qorunub saxlanması və möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi istiqamətində geniş siyasi kurs həyata keçirdi və "Əsrin müqaviləsi" bu yöndə atılmış əvəzsiz bir siyasi gediş oldu. "Əsrin müqaviləsi" Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin həlli, dövlətimizin siyasi təcrid edilməsinin aradan qaldırılması, dünyanın aparıcı dövlətləri ilə əlaqə və münasibətlərin yaradılması və genişləndirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiyası istiqamətində həyata keçirilən və bilavasitə perspektiv tərəqqiyə yönəlmiş nəhəng bir saziş idi.

Beləliklə, 1991-ci ildə Azərbaycan Respublikası Dövlət müstəqilliyini əldə etdikdən sonra beynəlxalq hüququn müstəqil subyektinə çevrilməklə bərabər həm də beynəlxalq münasibətlərin tam hüquqlu aktoru oldu. Yeni münasibətlər sistemi və yeni status dövlətin və cəmiyyətin bütün institutlarında yeniləşməni şərtləndirməklə bu münasibətlər sistemində milli və dövlət maraqlarının qorunması məsələsini aktuallaşdırdı [12, s.3, 27, 28].

XX əsrin sonlarında respublika ərazisində elan edilməmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsinin aparılması dövlətimizin birmənalı olmayan siyasi münasibətlərə qoşulmasının yeni istiqaməti kimi qiymətləndirilə bilər. Bu dövrdə bir tərəfdən yeni yaranmış dövlətin özünü ən yaxşı tərəflərdən dünya birliyinə tanıtması, digər tərəfdən isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin düzgün şəkildə təşviqi, münaqişənin ədalətli həlli istiqamətində fəaliyyətin genişləndirilməsi əsas şərt idi və

ISSN 2663 - 4619 / Print

hökumətimiz bu məqsədə nail olmaq üçün beynəlxalq təşkilatlarla əlaqələrin yaradılmasını mühüm addım hesab edirdi.

Bu müdrik addım onunla əlaqədar idi ki, dünyada baş verən hadisə və proseslər hökümətləri birbaşa təmsil etməyən müxtəlif təşkilatlar vasitəsilə beynəlxalq əlaqələrə təsir göstərir, insani təmaslardan turizm və idman fəaliyyətinə, ölkə içərisindəki təzyiq qruplarından beynəlxalq səviyyədə fəaliyyət göstərən təzyiq qruplarına və transmilli şirkətlərə qədər bir çox faktorun beynəlxalq siyasətdə nəzərə alınmasının vacibliyini ortaya çıxarır [12, s.3, 27, 28].

Beləliklə, Azərbaycan qarşıya çıxan bir sıra mühüm problemlərin, ilk növbədə, dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünya inteqrasiya prosesinə sıx cəlb olunmasında beynəlxalq təşkilatların rolundan istifadə etmək məqsədilə qısa müddət ərzində BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa Birliyi, Avropa Şurası, Avropa Parlamenti, NATO və başqa beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı. 2001-ci ilin yanvar ayında Azərbaycan Avropa Şurasına bərabərhüquqlu üzv olaraq qəbul edildi [13, s.4].

Beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sisteminə qoşulan Azərbaycan Respublikası BMT ilə əlaqələrini genişləndirməyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əsas addım hesab edirdi. Azərbaycan Respublikası 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün iki illik qeyri-daimi üzvü seçildi.

BMT Nizamnaməsinin 23-cü maddəsinə əsasən, Təhlükəsizlik Şurası 5 daimi (Çin, Rusiya, ABŞ, Fransa və Böyük Britaniya) və 10 qeyri-daimi üzvdən ibarətdir. Qeyri-daimi üzvlərin seçimində seçkiyə qoşulan ölkələrin beynəlxalq sülhün, təhlükəsizliyin qorunmasına, habelə BMT-nin digər məqsədlərinə nail olunmasına dəstəyi əsas götürülür. Eyni zamanda, dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu, sülhün və təhlükəsizliyin qorunmasına töhfələri həlledici amillər kimi nəzərə alınır [10, s.1].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan-ATƏT münasibətlərinin genişlənməsinə təkan vermişdir. 1992-ci il yanvarın 30-31-də Praqada keçirilən ATƏM Nazirlər Şurasının iclasında Azərbaycan və Ermənistanın bu təşkilata üzvlüyündən sonra ATƏM münaqişə ilə yaxından maraqlanmağa başladı. 1992-ci il martın 24-də Ali Məmurlar Komitəsinin təşəbbüsü ilə ATƏM-in Nazirlər Şurasının Helsinkidə keçirilən əlavə görüşündə ATƏM-in münaqişənin həlli prosesində əsas rol oynamalı olduğu bildirilib, Minskdə danışıqlar üçün daimi çərçivə kimi çıxış edəcək xüsusi konfransın çağırılması qərara alındı [6].

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsilə əlaqədar yaranmış münaqişə və müharibə şəraitinin tənzimlənməsi və ədalətli həlli ATƏT-in Minsk qrupunun əsas fəaliyyət proqramına daxil olsa da vəziyyətin nizama salınması istiqamətində demək olar ki, əhəmiyyətli bir iş görülməyib.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində NATO ilə əməkdaşlıq kontekstində Avroatlantik institutlara inteqrasiyası genişlənmişdir.

Azərbaycan-NATO ilk təmasların tarixi Azərbaycanın Mərkəzi və Şərqi Avropanın və keçmiş Sovet İttifaqının 37 dövləti ilə birlikdə yeni yaradılmış məşvərətçi foruma – Şimali Atlantika Əməkdaşlıq Şurasına (ŞAƏŞ) (sonralar, 1997-ci ildə AvroAtlantik Tərəfdaşlıq Şurasına (AATŞ) çevrilmişdir) qoşulduğu 1992-ci ilin mart ayına təsadüf edir. Azərbaycan Respublikası NATO ilə tərəfdaşlığı onun Avro-Atlantik strukturlara inteqrasiya strateji məqsədinə xidmət edir. Azərbaycan NATO ilə tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Azərbaycan-NATO tərəfdaşlığı fərdi əsaslarla qurulub. Eyni zamanda, Azərbaycan AAŞT-nin işində də fəal iştirak edir [4].

Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirdi və beynəlxalq münasibətlərinin genişlənməsində yeni mərhələ oldu.

Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrin tarixi 1992-ci ildən başlayır. Bu dövrdə müstəqilliyini yenicə əldə etmiş respublikamız dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə etibarlı əməkdaşlıq münasibətləri qurmağa cəhd göstərir və bu istiqamətdə müəyyən addımlar atırdı. 1992-ci ildə Azərbaycan “xüsusi dəvət olunmuş qonaq” statusu verilməsi xahişi ilə Avropa Şurasına rəsmi müraciət etdi. Lakin bu müraciət uzun müddət AŞ-nin diqqətindən kənarda qaldı. 2001-ci ildə Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi [2].

 ISSN 2663 - 4619 / Print

Avropa Şurasına daxil olduqdan sonra Azərbaycan hökuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yeni müstəvidə həlli istiqamətlərini axtarmağa və təklif etməyə başladı.

Müstəqilliyin ilk dövrlərində Azərbaycan Respublikasının əsas siyasi hədəflərindən biri də Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsi olmuşdur. Hazırda Avropa İttifaqı Azərbaycanla Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq edir. Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli münasibətlərin hüquqi əsasını 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və 01 iyul 1999-cu il tarixində qüvvəyə minmiş "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" (TƏS) təşkil edir. Bu Saziş Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və iqtisadi sahələrini əhatə edir. Saziş Azərbaycan ilə Avropa İttifaqı arasında hərbi sahəni əhatə etməyən bütün növ əməkdaşlıq formalarının çərçivələrini təmin edir [3].

Azərbaycan – Avropa İttifaqı münasibətləri 1991-ci ildə qəbul edilmiş TACİS proqramı əsasında qurulmuşdur. Bu proqram 1 yanvar 2007-ci il tarixindən etibarən Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) ilə əvəz olunmuşdur. Daha geniş mandat və əhatə dairəsinə malik olan AQTA AQS Fəaliyyət Planlarının həyata keçirilməsi üçün əsas maliyyə alətidir [7].

AQS ölkəmiz üçün aşağıdakı imkanlar yaratmışdır:

- siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olma imkanı;
- vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirak;
- Aİ üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s. [5].

Qeyd edilən nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlıq və tərəfdaşlıq bu gün Azərbaycan dövlətinin beynəlxalq siyasi münasibətlərin aktoruna çevirmişdir. H.Babaoğlunun qeyd etdiyi kimi "Beynəlxalq münasibətlərdə hər hansı bir qurumun aktor olaraq nəzərə alınması üçün ən azı aşağıdakı şərtlərə cavab verməsi lazımdır:

1. Açıq bir şəkildə müəyyən olması.
2. Beynəlxalq sferada müəyyən bir qərarvermə gücünə sahib olması.
3. Nisbi müstəqil, yəni müstəqil işlər yarada bilmə qabiliyyətinin olması.
4. Digər oyunçulara təsir göstərə bilən nisbi məhdud vahidlərə malik olması.
5. Müəyyən bir dövr ərzində mövcud olması [12, s.3, 27, 28].

Göstərilənlərdən çıxış edərək, deyə bilərik ki, bu gün müstəqil Azərbaycan dövləti və hökuməti dünyanın demək olar ki, bütün dövlətlərilə geniş siyasi, mədəni, iqtisadi əlaqələr qurmuşdur və bu əlaqələrin uğurla davam etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi və həlli istiqamətində atılan mühüm siyasi addımlar Azərbaycan Respublikasının beynəlxalq münasibətlərin tamhüquqlu bir aktoru olduğunu göstərir.

Ümummilli Lider Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan öz strateji hədəflərinə doğru inamla addımlamaqda, beynəlxalq aləmdə nüfuzu günü-gündən artmaqdadır. Ölkəmiz dünyanın ən mühüm strateji məsələlərinin - enerji, ərzaq, sosial təhlükəsizlik problemlərinin müzakirə olunduğu, idman, sağlamlıq və sülh çağırışlarının hədəf seçildiyi çoxsaylı mötəbər tədbirlərin keçirildiyi məkanlardan birinə çevrilmişdir. Son illərdə respublikamızda təşkil olunan Bakı Beynəlxalq Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, "Avroviziya" mahnı müsabiqəsi, Avropa oyunları və "Formula 1" Avropa Qran Prisi kimi iri miqyaslı tədbirlər ölkəmizin beynəlxalq nüfuzunun və inkişafının göstəricisidir [8, s.37].

Akademik Ramiz Mehdiyev müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasətin əsas məqamlarını aşağıdakı kimi ümumiləşdirmişdir:

- xarici siyasət fəaliyyətinin mühüm elementi, ölkənin inkişafının tarazlaşdırıcı amili, milli mənafelərimizin prioritet şəkildə cəmləşdiyi sahə olan neft strategiyası;
- Qərb ölkələrinin bu regiona artan marağı ilə bağlı Azərbaycanın milli təhlükəsizlik problemi;
- Azərbaycanın regional siyasi, hərbi-siyasi və iqtisadi strukturlarda iştirakı;
- gələcəkdə ölkənin xarici siyasət fəallığının perspektivləri [15, s.227, 228].

ISSN 2663 - 4619 / Print

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi beynəlxalq münasibətlər və xarici siyasət xəttini uğurla davam etdirən prezident İlham Əliyev varislik, novatorluq və dinamizm prinsiplərinə əsaslanaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət yeridir. Dövlətimizin Avropa və dünya strukturlarına inteqrasiyasını davam etdirir [1, s.202-206].

Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə də əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələrə girir [9, s.187-198].

Akademik Ramiz Mehdiyev prezident İlham Əliyevin xarici siyasət fəaliyyətini aşağıdakı kimi ümumiləşdirmişdir:

- milli mənafelərin, dövlətin məqsəd və prioritetlərinin qorunması;
- ölkənin iqtisadi, siyasi və hərbi-siyasi suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qorunub saxlanması və təmin edilməsi;
- ölkənin bütün vətəndaşlarının hüquqları, azadlıqları, ləyaqəti və maddi rifahının qorunması;
- Azərbaycanın mühüm həyati maraqlarının olduğu regionların və ölkələrin müəyyənləşdirilməsi;
- dünya birliyi ölkələri ilə əməkdaşlığın inkişafına yönəldilmiş xarici siyasət strategiyasının bazasının yaradılması.
- ölkənin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunub saxlanması, Dağlıq Qarabağ münaqişəsinin həlli;
- bütün coğrafi azimutlar üzrə bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, təkcə siyasi deyil, həm də iqtisadi prioritetlərin və maraqlann gerçəkləşdirilməsini təmin etmək məqsədi ilə bütün regional bloklar və təşkilatlarla qarşılıqlı fəaliyyət;
- Azərbaycan üçün məqbul və faydalı olan demokratik, çoxqütblü beynəlxalq münasibət sistemlərini öz hərəkətləri ilə dəstəkləmək [15, s.227, 228].

Beləliklə, bu gün ölkəmizdə uğurlu xarici siyasətin həyata keçirildiyini və bu əsasda səmərəli beynəlxalq münasibətlərin qurulduğunu söyləmək olar. Bu gün Azərbaycan Respublikası beynəlxalq siyasi arenada öz siyasi iradəsini göstərən, həm Qərb, həm də Şərq ölkələri ilə balanslaşdırılmış siyasi əlaqələr quran bir dövlət olaraq mövcuddur.

**Ədəbiyyat:**

1. Abbasova S. Prezident İlham Əliyevin siyasi kursu // Tarix və onun problemləri, N 1-2, 2009, s.202-206
2. Avropa Şurası və Azərbaycan. http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/ash.pdf
3. Avropa İtifaqı ilə əməkdaşlıq. http://minenergy.gov.az/docs/bte/A%C4%B0_EMEKDASHL%C4%B0Q.pdf
4. Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. http://www.mfa.gov.az/files/file/Az-NATO_15_il(az).pdf
5. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri. http://www.mfa.gov.az/content/566
6. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. http://idp.gov.az/uploads/files/Dagliq_Qaraag_munaqishesi.pdf
7. Əliyeva G. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri haqqında // Məşvərət, 2003, №11
8. Əlizadə A. Zaman, müasir inkişaf və elm // Müstəqillik yollarında. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr edilmiş məqalələr toplusu. Bakı, "Şərq-Qərb" Nəşriyyatı, 2016, 628 s.
9. Əhmədov E. Müasir dövrdə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətləri (2003-2017-ci illər) // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. 4 (60) 2017, s.187-198
10. Hacalıyev E. Azərbaycan BMT-də söz sahibidir. “Azərbaycan”. 2012. 24 oktyabr. № 239. s.1.
11. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005. 631 s.

 ISSN 2663 - 4619 / Print

12. Hikmət Babaoğlu. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı «Elm», 2007. 516 s.
13. Qurbanov R. Azərbaycan VƏ ATƏT dərs vəsaiti. Bakı: İqtisadiyyat universiteti nəşriyyatı, 2010
14. Гурбанова С.А. Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики. Баку, «Şorq-Qərb», 2010, 72 с.
15. Mehdiyev Ramiz. "Azərbaycan: qloballaşma dövrünün tələbləri". Bakı, "XXI - Yeni Nəşrlər Evi", 2005, 464 s.

**Azerbaijan republic in modern international relations**
**Summary**

The collapse and collapse of the world system of socialism at the end of the twentieth century caused a transformation of the essence of international relations. The emergence of independent States has led to a restructuring of the political landscape of the world, changes in the content and content of international relations. These changes began to manifest themselves with the emergence of new principles and mechanisms for applying the new principles of international law, transnationalizing world politics, and the growing role of the United States in the new world order. In the polar world, central and peripheral states began to differentiate. The collapse of the Soviet Empire in the Euro-Asian region led to the emergence of new independent states, including the Republic of Azerbaijan and the subject of modern world politics.

After independence, the Republic of Azerbaijan was recognized as peace and established diplomatic relations with it. At the same time, like other sovereign States, a number of international and regional organizations have been adopted. The role of the national leader Heydar Aliyev in establishing international relations of the Republic of Azerbaijan during this period is undeniable.

**Азербайджанская республика в современных международных отношениях**
**Резюме**

Крах и коллапс мировой системы социализма в конце XX века вызвал трансформацию сущности международных отношений. Появление независимых государств привело к перестройке политического ландшафта мира, изменениям в содержании и содержании международных отношений. Эти изменения начали проявляться с появлением новых принципов и механизмов для применения новых принципов международного права, транснационализации мировой политики и растущей роли Соединенных Штатов в новом мировом порядке. В полярном мире центральные и периферийные государства начали дифференцироваться. Распад Советской империи в евроазиатском регионе привел к появлению новых независимых государств, в том числе Азербайджанской Республики и субъекта современной мировой политики.

После обретения независимости Азербайджанская Республика была признана миром и установила с ним дипломатические отношения. В то же время, как и другие суверенные государства, был принят ряд международных и региональных организаций. Роль общенационального лидера Гейдара Алиева в установлении международных отношений Азербайджанской Республики в этот период неоспорима.

**Rəyçi: dos. s.f.d. S.D.Məmmədova**